Azərbaycan. - 2025.- 9 sentyabr (№191).- S.1; 4.



# Ədaləti bərpa edən LİDER

Cənab İlham Əliyev ATƏT-in Minsk qrupunun heç nəyə yaramadığını və heç nəyə nail olmayacağını dəqiq bilsə də, heç zaman danışıqlar prosesindən imtina etmədi.

Qüdrətli ordu yaratdıqdan sonra əlverişli məqamın yetişməsini gözlədi.

Havadarlarına və müdafiəçilərinə arxayın olan Ermənistan isə artıq özünü işğal etdiyi Azərbaycan torpaqlarının ağası kimi aparırdı.

Özgə torpaqlarında yaratdığı qondarma "dqr"də vaxtaşırı qanunsuz prezident seçkiləri keçirir, saxta parlamentin fəaliyyətini davam etdirirdi!

Get-gedə quduraraq cızıqlarından çıxır, həyasızlıqlara əl atırdılar.

Artıq separatçı qurum üçün Şuşada yeni parlament binası inşa edirir, Azərbaycanın mədən-qazıntı yataqlarından çıxarılan sərvətləri gecə-gündüz daşıyaraq mənimsəyirdilər.

Azğınlıq və həddsizlik elə bir nöqtəyə gəlib çatdı ki, Ermənistanın yeni rəhbəri N.Paşinyan Xankəndidə içib sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək bütün sülh danışıqlarını mənasız etdi.

Ədalətin zor ilə bərpasından başqa yol qalmadığını gözəl bilən cənab İlham Əliyev yenə də tələsmədi, səbir və təmkinlə hərəkət etdi!

Əvvəlcə Soçidə keçirilən Valday Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münhen Təhlükəsizlik Konfransında çıxış edərək və Paşinyanla debata girərək Ermənistanın qudurğan hərəkətinin yanlışlığını və yolverilməzliyini bir daha dünya ictimaiyyətinə çatdırdı.

Sonra Ermənistanın daha ciddi səhvlərə yol verərək yanlış addımlar atmasını gözlədi!

N.Paşinyan havadarlarının və dəstəkçilərinin müdafiəsindən ruhlanaraq hədə-qorxu yolunu tutmuşdu.

Aprel müharibəsinin gedişindən və nəticələrindən heç bir dərs götürmədi!

Artıq həddini aşanları cəzalandırmaq zamanı çatmışdı!

Artıq ədalətin silah gücünə bərpası məqamı çatmışdı!

Artıq Azərbaycanın özünün güc və qüdrətindən istifadə vaxtı yetişmişdi!

İlham Əliyev azğınlaşmış düşməni cəzalandırmaq üçün çoxdan həsrətlə gözlədiyimiz "İrəli!" əmrini verdi!

4



# Ədaləti bərpa edən LİDER

Təbiət də ədalətsizliklərə dözmür!

Öz gücü və imkanları ilə, özünəməxsus şəkildə "xəbərdarlıq"larını edir:

- Meşələr od tutub yanır, insanlar günlərlə, həftələrlə çalışsalar da, söndürə bilmirlər!
- Bir-birinin ardınca zəlzələlər baş verir, yer insanların ayağının altından qaçır!
- Sönmüş vulkanlar yenidən alovlanaraq yerə, göyə od püskürürlər!
- Güclü küləklər, tufanlar ağacları qırır, evlərin damını götürüb aparır, sunamilər yaradırlar!
- Leysan yağışları sellərə çevrilərək, bütöv kəndləri yuyub aparır, yaşayış məntəqələrini su altında qoyur, qarşısına çıxan evləri, körpüləri dağıdaraq çaylara qovuşdururlar!

Lakin yenə baş verənlərdən zəruri nəticələr çıxarmaq istəyənlər azdır!

Pul hərisliyi, vəzifə düşkünlüyü səlahiyyət sahiblərinin gözlərini bağlayır, həqiqəti görmələrinə, ədalətli, doğru qərarlar çıxarmalarına imkan vermir.

**Ötən dövrün təcrübəsi göstərir ki, ədalətsizliklərlə bacarmağın, haqqını təmin etməyin bircə yolu var:**

**Güclü olmalısan!**

*Belədə ədaləti də təmin edə bilirsən, səninlə hədə-qorxu dili ilə danışanların cavabını da lazımınca verərək yerində oturdursan!*

Bəs güclü olmağın yolu nədir?

❖ ❖ ❖

**Dünyada Birləşmiş Millətlər Təşkilatı adında bir qurum var!**

İki yüzədək dövlət ona üzv olaraq dünyanın problemlərini, öz problemlərini birlikdə, birgə güc və imkanlar hesabına həll edəcəyini düşünür.

BMT-ni daha çevik idarə etməkdən ötrü Təhlükəsizlik Şurası adlı üst qurum da yaradıblar.

Təhlükəsizlik Şurasına beş daimi üzv rəhbərlik edir.

Onların hər biri həlledici səsə malikdir, BMT-nin bütün qərar və qətnamələrinə veto - yəni qadağa qoymaq hüququndadırlar.

Yaradılandan belə qaydada çalışan bu qurum yaratdığı qaydanın artıq girovuna çevrilib.

*Çünki BMT Təhlükəsizlik Şurasının daimi üzvləri bir-biriləri ilə yola getmirlər, nadir hallarda ortaq məxrəcə gəlirlər.*

*Bəzən də əvəz-əvəzə gedirlər: sən mənim istədiyimə veto qoydun, mən də sənin istəyinin reallaşmasına imkan verməyəcəyəm!*

**Beş dövlətin dünya ilə bağlı taleyüklü qərarların qəbulunda söz sahibi rolunu oynamasının özü ədalətsizlikdir!**

Çünki həmin dövlətlər hər dəfə səsvermədə öz maraqlarını, subyektiv mövqelərini əsas götürürlər!

Həm də burada dünyanın bütün qitələrinin, digər dinlərinin nümayəndələri təmsil olunmayıblar.

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu məqamı nəzərdə tutaraq dəfələrlə iradını bildirib:*

*"Dünya beşdən böyükdür!"*

**Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edərkən deyilən məqamları nəzərdə tutaraq cəsarətli təklif irəli sürdü:**

**"BMT-də əsaslı islahatların vaxtı çatmışdır!"**

Lakin həmin beş dövlət öz təsir imkanlarını əldən vermək, hakim mövqelərini başqaları ilə bölüşmək fikrində deyil.

*Odur ki, BMT ən böyük qurum sayılsa da, beynəlxalq hüququn müdafiəçisi imicini formalaşdırsa da, əslində, məhdud maraqlara və kimlərinsə kimlərə qarşı təsir və təzyiq vasitəsinə çevrilmiş təşkilat kimi qalmaqdadır!*

**Bunu biz həm də otuzillik təcrübəmizdə yəqin etmişik!**

Ötən əsrin doxsanıncı illərində BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına dair dörd qətnamə qəbul etdi.

Həmin qətnamələrdə Ermənistanın bütün növ hərbi birləşmələrinin qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması tələb olunurdu.

Lakin məşhur Azərbaycan məsəlində deyildiyi kimi, BMT-nin oxuduğu duaya erməni donuzu məhəl qoymadı!

*BMT də öz qətnamələrinin havadan asılı qalmasına dözdü, sözdən o yana keçmədi!*

Avropa İttifaqı və AŞPA da qərar və qətnamələr qəbul etməklə məşğuldurlar.

**Beynəlxalq hüququn norma və prinsiplərinin təmin edilməsinə xidmət etməli olan bu qurumların fəaliyyətində isə iki cəhət özünü qabarıq göstərir:**

*Əvvəla,* bu qurumlar ikili standartlar, ikili yanaşma ilə işləyirlər!

*İkincisi,* onların qəbul etdikləri ədalətsiz sənədlər əksər halda havadan asılı qalaraq mənasız kağız parçalarına çevrilir.

*Üzvlər arasında lobbiçilik pərdəsi altında korrupsiya və rüşvətxorluq kök saldığından, hətta dəfələrlə qurumun üzvləri korrupsiya cinayətlərinə görə məhkum olunduqlarından nüfuzdan düşərək dişsiz təşkilata çevrilmişlər.*

**Əslində, beynəlxalq təşkilatlar ikili standartlar və korrupsiya bataqlıqlarında boğulduqlarından, üstəlik, güclülərin əlində zəiflərə qarşı təzyiq və təhdid alətinə çevrildiklərindən onlardan hansısa problemin həllini gözləmək mənasızdır...**

**Bütün bu deyilənlərə ən bariz nümunə kimi ATƏT-in Minsk qrupunu göstərmək olar.**

*Bu qurum məhz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmışdı.*

- Otuz il müddətində münaqişə tərəfləri olan hər iki dövlətə saysız-hesabsız səfərlər keçirdilər.
- Hər dövlətin rəhbərləri ilə ayrıca, dəfələrlə müxtəlif ünvanlarda birgə görüşlər keçirdilər.
- Nə qədər bozbaş yeyib, tut arağı içdilər!
- Danışıqlarda bir addım irəliləyiş olmadı!
- Bir qarış torpaq belə sülh yolu ilə azad edilmədi!

**Əksinə, Azərbaycanı daim güzəştə getməyə, torpaq itkisi ilə barışmağa razı salmağa çalışdılar.**

**Bu, mümkün olmadıqda isə sülh danışıqlarını sonsuzadək uzatmaq yolunu tutdular.**

Azərbaycana yeni nəsil gələcəkdi, yeni rəhbərlik guya "de fakto"nu "de yure" kimi tanıyacaqdı!

*Bu qurumu yaradanlar da, həmsədr dövlətlər də, əslində, erməni maraqlarından çıxış edərək, erməni mövqeyini müdafiə edirdilər.*

MƏSƏLƏN:

**Rusiya münaqişə başlayandan onun sonunadək Qarabağdakı separatçılara müxtəlif formada dəstək verib:**

- Ermənistanın silahlanmasına göz yumub, hətta özü ona iki dəfə, hər dəfə bir milyard dollarlıq havayı silah-sursat verib.
- Rus hərbçiləri erməni terrorçu dəstələrinin, qeyri-qanuni hərbi birləşmələrinin təminatçılarına və müdafiəçilərinə çevriliblər, Xocalı soyqırımında fəal iştirak ediblər.
- Rusiya sülhməramlı kontingenti isə sülh yaratmağa yox, terrorçu dəstələrinin qorunmasına, təmin və təchizatının aparılmasına xidmət edib.
- Məhz Rusiya ordusunun sayəsində Laçın dəhlizi xəyanət yoluna çevrilib.
- Azərbaycana düşmən münasibəti bəsləyən ünsürlər bu yolla Qarabağa gəlib-gedib, torpaqların işğalda qalmasına dəstək veriblər.

**ATƏT-in həmsədr dövləti Fransa hələ Minsk qrupuna daxil ediləndə obyektiv və bitərəf olacağına söz vermişdi.**

- Makronun prezidentliyi dövründə Fransa nəinki bitərəf və obyektiv oldu, əksinə, Azərbaycana qarşı düşmənçiliyi pik həddinə çatdı!
- Prezident seçkilərində ermənilərin verdikləri səsə görə onlara borclu qalan Makron erməni diasporunun çaldığı bütün havalara oynadı.
- Fransa parlamenti Azərbaycana qarşı qərəzli qətnamələrin qəbulu mərkəzlərindən birinə çevrildi.
- Məhz Fransanın təşəbbüs və təkidi ilə Aİ-yə məxsus casus şəbəkəsi Ermənistan-Azərbaycan sərhədində yerləşdirildi və bu günədək də casusluqla məşğuldurlar.
- Bütün bunlar azmış kimi, Fransa sülh prosesinə böyük maneələr törədərək Ermənistanı sürətlə silahlandırır, erməni ordusu ilə birgə təlimlər keçirir.

**ATƏT-in digər həmsədr dövləti olan ABŞ də ermənipərəst mövqeyi ilə fərqlənib.**

- ABŞ Konqresi erməni diasporunun təsiri, ayrı-ayrı konqresmen və senatorların aldıqları rüşvət əvəzində çıxarılan ədalətsiz qərarların məskəninə çevrilmişdir.
- Torpağı işğala məruz qalan Azərbaycana qarşı çıxarılan 907-ci düzəliş ATƏT-in Minsk qrupunun həmsədr dövlətinin necə "obyektiv və ədalətli" olmasından xəbər verir.
- Baydenin prezidentliyi dövründə ABŞ ilə Ermənistan arasında imzalanan strateji əməkdaşlıq müqaviləsi isə ermənipərəstliyin pik nöqtəsinə çevrildi!

*Azərbaycan bütün bunlara dözdü, duruş gətirdi, heç zaman işğalla barışmadı, bir qarış torpağından belə əl çəkmədi!*

Özü istəmədən belə bu siyasi oyunların iştirakçısına çevrildi!

**Həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev yaxşı bilirdilər ki, ATƏT-in Minsk qrupu heç zaman ədaləti bərpa edərək Azərbaycan torpaqlarını dinc yolla geri qaytarmayacaqdır!**

*Lakin sülh danışıqlarından, sülh yolundan da imtina etmək olmazdı!*

*O zaman bədxahlarımız və düşmənlərimiz bundan istifadə edər, Azərbaycanı aqressiv dövlət kimi tanıdaraq ona qarşı sanksiyalar tətbiq edərdilər.*

Azərbaycan ən doğru olanını etdi:

- İqtisadi cəhətdən güclənməyə nail oldu!
- Beynəlxalq nüfuzunu artırdı, beynəlxalq təşkilatlarda fəaliyyətini gücləndirdi, özünə xeyli dost qazandı!
- Yeni gənclər nəsli tərbiyələndirərək onların da iştirak etdikləri güclü və müasir ordu yaratdı, onu ən müasir silahlarla silahlandırdı!

**İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi, nəyi nə vaxt və necə həll etmək məharəti sülhün və ədalətin silah gücünə bərqərar olmasına şərait yaratdı!**

❖ ❖ ❖

*Cənab İlham Əliyev ATƏT-in Minsk qrupunun heç nəyə yaramadığını və heç nəyə nail olmayacağını dəqiq bilsə də, heç zaman danışıqlar prosesindən imtina etmədi.*

Qüdrətli ordu yaratdıqdan sonra əlverişli məqamın yetişməsini gözlədi.

Havadarlarına və müdafiəçilərinə arxayın olan Ermənistan isə artıq özünü işğal etdiyi Azərbaycan torpaqlarının ağası kimi aparırdı.

Özgə torpaqlarında yaratdığı qondarma "dqr"də vaxtaşırı qanunsuz prezident seçkiləri keçirir, saxta parlamentin fəaliyyətini davam etdirirdi!

Get-gedə quduraraq cızıqlarından çıxır, həyasızlıqlara əl atırdılar.

Artıq separatçı qurum üçün Şuşada yeni parlament binası inşa etdirir, Azərbaycanın mədən-qazıntı yataqlarından çıxarılan sərvətləri gecə-gündüz daşıyaraq mənimsəyirdilər.

*Azğınlıq və hədsizlik elə bir nöqtəyə gəlib çatdı ki, Ermənistanın yeni rəhbəri N.Paşinyan Xankəndidə içib sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək bütün sülh danışıqlarını mənasız etdi.*

Ədalətin zor ilə bərpasından başqa yol qalmadığını gözəl bilən cənab İlham Əliyev yenə də tələsmədi, səbir və təmkinlə hərəkət etdi!

Əvvəlcə Soçidə keçirilən Valday Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münhen Təhlükəsizlik Konfransında çıxış edərək və Paşinyanla debata girərək Ermənistanın qudurğan hərəkətinin yanlışlığını və yolverilməzliyini bir daha dünya ictimaiyyətinə çatdırdı.

Sonra Ermənistanın daha ciddi səhvlərə yol verərək yanlış addımlar atmasını gözlədi!

N.Paşinyan havadarlarının və dəstəkçilərinin müdafiəsindən ruhlanaraq hədə-qorxu yolunu tutmuşdu.

Aprel müharibəsinin gedişindən və nəticələrindən heç bir dərs götürmədi!

- Artıq həddini aşanları cəzalandırmaq zamanı çatmışdı!
- Artıq ədalətin silah gücünə bərpası məqamı çatmışdı!
- Artıq Azərbaycanın özünün güc və qüdrətindən istifadə vaxtı yetişmişdi!

**İlham Əliyev azğınlaşmış düşməni cəzalandırmaq üçün çoxdan həsrətlə gözlədiyimiz "İrəli!" əmrini verdi!**

❖ ❖ ❖

Azərbaycan müharibəni təkcə sürətlə deyil, həm də məharət və ləyaqətlə apardı!

Yeni strategiya və taktikaya, habelə ən yeni texnologiyaya əsaslanan müasir silahlar tətbiq etdi.

Düşməni taktiki cəhətdən üstələyərək onun əsas qüvvələrinin mərkəzdə cəmləşdirilməsinə nail oldu, özü isə sərhədboyu irəliləyərək Şuşanı ələ keçirməklə həmin əsas qüvvələrini mühasirəyə aldı.

*PUA-larla endirilən dəqiq zərbələr, xüsusi təyinatlıların və komando qüvvələrinin cəsarət və peşəkarlıqları düşmənin canına vahimə və qorxu saldı, onları silah-sursatlarını, hərbi texnikalarını ataraq qaçmağa vadar etdi.*

Ermənilər öz murdarlıqlarını bir daha göstərərək döyüş bölgələrindən yüz kilometrlərlə uzaqda yerləşən yaşayış məntəqələrini - Gəncə, Tərtər, Bərdə, Goranboy şəhərlərini ballistik raketlərlə vurdular, qadağan edilmiş fosforlu və kasetli bombalarla atəşə tutdular, dinc əhali arasında böyük tələfatlar yaşatdılar.

**Azərbaycan öz ləyaqətini itirmədi, hərbi əməliyyatlar dövründə, habelə lokal xarakterli antiterror tədbirləri keçirərkən bir nəfər belə mülki vətəndaşa və obyektə xətər toxundurmadı.**

Ərazilərimizi könüllü surətdə tərk etmək istəyən Ermənistan vətəndaşlarına təhlükəsiz şərait yaratdı, ölkəmizdən çıxmalarına heç bir maneə törətmədi.

"Dəmir yumruq" sürətlə və məharətlə işlədi, "məğlubedilməz" Ermənistan ordusunu 44 gündə məhv etdi, düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev heç bir dövlətin edə bilmədiyini qısa zaman ərzində həyata keçirdi:**

- 44 gün ərzində otuzillik işğala birdəfəlik son qoydu!
- Sonra yenə təmkinlə davrandı.
- 2023-cü ilin aprelində Azərbaycanın ərazi bütövlüyünə nail oldu!
- 2023-cü ilin sentyabrında isə Dövlət suverenliyini və Konstitusiya əsaslarını təmin etdi!

*Beləliklə, ölkə ərazisində separatizmin kökünü birdəfəlik kəsdi, bir nəfər belə separatçı qalmasına yol vermədi!*

❖ ❖ ❖

**Sülhyaratma prosesində də Müzəffər Ali Baş Komandan İlham Əliyev müdriklik və uzaqgörənliklə hərəkət edir.**

Ermənistanın dostları və havadarları dəridən-qabıqdan çıxaraq vasitəçilik missiyasını yerinə yetirməyə can atır, uduzulanların əvəzini sülh müqaviləsi şərtlərinin tərtibi zamanı çıxmağa can atırdılar.

**Cənab İlham Əliyev bütün bu səylərə, canfəşanlıqlara son qoydu, erməni maraqlarının təmsilçilərini danışıqlar prosesindən tamamən kənarlaşdırdı!**

*Həm də sübut etdi ki, vasitəçilərsiz danışıqlarda daha sürətli nəticələr qazanılır!*

Bunu Azərbaycana məxsus dörd kəndin sülh yolu ilə qaytarılması, habelə delimitasiya və demarkasiya proseslərində qazanılan nəticələr də sübuta yetirirdi.

**Prezident İlham Əliyev ilk günlərdən irəli sürdüyü bütün şərtlərin yerinə yetirilməsində qətiyyət və əzmkarlıq göstərərək öz istəklərinə tələsmədən nail olur!**

Vaşinqton görüşləri də deyilənləri bir daha təsdiq edir!

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər müharibəsində əldə etdiklərinin digər bir hissəsinə sülh və dostluq yolu ilə, həm də dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidenti Donald Trampın iştirakı və dəstəyi ilə keçirilən görüş və razılaşmalarda mühüm sənədləri imzalamaqla nail olur.**

*İlham Əliyevin avqustun 8-də ABŞ-də Ağ Evdə Donald Trampla keçirilən görüşü üç mühüm istiqaməti ilə yadda qaldı:*

*Birinci,* Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərdə yeni tarixi mərhələnin başlanmasıdır.

Razılaşmaya və imzalanan memoranduma əsasən, Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası hazırlanaraq qəbul ediləcəkdir.

Bu, Azərbaycan üçün tarixi nailiyyətdir!

**Strateji tərəfdaşlıq formatı bir çox vacib sahəni - qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizəni əhatə edir.**

*İkincisi,* Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutunun yaradılması - başqa sözlə, Zəngəzur dəhlizinin (TRIPP) ABŞ vasitəsilə açılmasıdır.

**Bu, Ermənistanın müxtəlif vasitə və bəhanələrlə boyun qaçırdığı və Azərbaycanın israrlı olduğu - Azərbaycandan-Azərbaycana sərbəst hərəkət yolunun da işə salınması deməkdir.**

*Donald Trampın məsələyə şəxsən müdaxiləsi həm də kənarda dayanaraq mane olmaq istəyənlərin yerində oturdulması deməkdir!*

**"Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması isə ən vacib sənədlərdən biri idi.**

Əvvəla, saziş layihəsində Azərbaycanın prinsipial mövqeyi və dəyişməz şərti əksini tapmışdır.

İkincisi, D.Trampın şahidliyi ilə imzalanan bu sənədin icra edilməməsi mümkün deyil, əks halda ABŞ Prezidentinə hörmətsizlik kimi qiymətləndiriləcəkdir.

**Vaşinqton görüşündə Azərbaycan və ABŞ dövlət başçılarının bir-birilərinə qarşılıqlı hörmət və əməkdaşlıq istəklərindən də bəhrələnən bir neçə addım atıldı.**

Əvvəla, ABŞ Prezidenti D.Tramp münasibətlərin inkişafında əngələ çevrilən 907-ci düzəlişin fəaliyyətini dondurdu.

ATƏT-in Minsk qrupunun (həmsədr dövlətlərindən biri də ABŞ-dir) bağlanmasına dəstək verdi və beləliklə, tədbirdə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri bu barədə ATƏT-in fəaliyyətdə olan sədrinə birgə məktub imzalayıb göndərdilər.

Ağ Evdə mətbuata bəyanatla çıxışında Azərbaycan Prezidenti İlham Əliyev dedi: *"Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq".*

**Cənab İlham Əliyev hələ əvvəllər də dəfələrlə Donald Trampın ABŞ-nin müharibə başlatmayan prezidenti olduğunu qeyd etmişdi.**

Bu dəfə isə onun sülhpərvər missiyasının layiqincə qeyd olunması üçün Paşinyanla birgə Nobel Sülh Mükafatları Komitəsinə məktub göndərilməsi barədə təşəbbüs irəli sürdü.

*D.Tramp Azərbaycan Prezidentinin fəaliyyətinə dəyərli sözlərlə verdiyi qiyməti Ağ Evin rəmzi qızıl açar hədiyyəsi ilə bir daha təsdiqlədi.*

**Bununla İlham Əliyev Trampın qızıl açar bağışladığı nadir insanlardan biri oldu!**

❖ ❖ ❖

Azərbaycan hərbi qələbəsinə 8 noyabr 2020-ci ildə düşmənə kapitulyasiya aktını imzalatmaqla nail olmuşdu!

*Azərbaycan beynəlxalq-siyasi qələbəsini 8 avqust 2025-ci ildə Vaşinqtonda qazandı.*

I Qarabağ müharibəsində uduzaraq torpaqlarını itirən Azərbaycan otuz ildən sonra işğalçıları məğlub edərək öz ərazilərindən qovdu.

II Qarabağ müharibəsini Zəfərlə başa çatdırdıqdan sonra isə daha üç mühüm qələbəyə imza atdı:

- Ərazi bütövlüyünü bərpa etdi;
- Dövlət suverenliyinin və Konstitusiya əsaslarının təmininə nail oldu;
- Rusiya Sülhməramlı Kontingentini sülh yolu ilə, dinc şəkildə ölkə ərazisindən çıxardı.

*Vaşinqton görüşündə əldə olunan nailiyyətlər isə qazanılan qələbələrin davamı, Azərbaycanın qarşısına qoyduğu hədəflərə sülh yolu ilə, dinc şəkildə çatması sayıla bilər!*

**Bu uğurlar həm də Azərbaycan Prezidenti İlham Əliyevin qlobal lider kimi yüksək siyasi nüfuzunun və siyasətçi məharətinin təsdiqidir!**

❖ ❖ ❖

İlahi ədalət gec-tez öz yerini alır.

Lakin sakit dayanaraq onun nə vaxt bərqərar olacağını da gözləmək olmaz!

Necə deyərlər, "Allahdan buyruq, ağzıma quyruq" yoxdur!

"Səndən hərəkət, məndən bərəkət" daha real nəticəverimlidir!

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin etdiyi bütün xəbərdarlıqlar baş verdi!*

*Prezidentimiz demişdi:*

- Azərbaycan heç zaman işğalla barışmayacaqdır!
- Biz bir qarış torpağımızı belə kimsəyə güzəştə getməyəcəyik!
- Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!
- Sülh danışıqları bir nəticə verməsə, Azərbaycan öz torpaqlarını hərbi yolla azad edəcəkdir!

**İlham Əliyev bütün dediklərini etdi!**

Azərbaycan xalqı bütün istəklərinə qovuşdu!

İlahi ədalət öz yerini aldı!

Yarı hərb, yarı sülh yolu ilə!

Dostlar sevinsin, düşmənin gözü kor olsun!

**Bəxtiyar SADIQOV**